ABB
Azərbaycan Beynəlxalq Bankı

ARAŞDIRMA HESABATLARI

# Avtomobil bazarına baxış: qlobal trendlər və Azərbaycan

Sentyabr 2024

# Xülasə

ABB-nin "Avtomobil bazarına baxış: qlobal trendlər və Azərbaycan" adlanan bu hesabatında son 5 il üzrə dünyanın və Azərbaycanın avtomobil sektorunda özünü göstərən əsas meyllərin təhlili aparılıb. Ölkədə xüsusilə çox istifadə edilən avtomobil markalarına diqqət yönəlib. Yerli bazarda avtomobil qiymətlərinin artım dinamikası izlənib.

Hesabatda hibrid və elektrik avtomobillərinin Azərbaycana idxalı, bu avtomobillərin qiymətlərindəki dəyişikliklər barədə geniş araşdırmalar edilib. Burada həmçinin ölkəmizdə ikinci əl avtomobil bazarı ilə bağlı da ətraflı təhlillər var.

Müxtəlif sahələr üzrə bu cür araşdırma-hesabatların hazırlanması bir çox xarici bankların geniş istifadə etdiyi təcrübədir. Azərbaycanda bu təcrübəni ilk dəfə məhz ABB tətbiq edib. Belə ki, Bank bu il "Bakı şəhəri üzrə daşınmaz əmlak bazarının təhlili", "Azərbaycan üzrə pərakəndə ticarət sektorunun təhlili: trendlər və nəticələr", "Rəqəmlərlə turizm: Azərbaycan turizm sektorunun statistik mənzərəsi" adlı hesabatlarını bölüşüb. Ümid edirik ki, yeni hesabatımız da maraqlı tərəflər üçün faydalı olacaq.

# Qlobal avtomobil bazarı

# Son beş ildə Çin, ABŞ və Yaponiya avtomobil istehsalında liderliklərini qoruyub saxlamışlar

## 2019-2023-cü illərdə qlobal avtomobil istehsalı (milyon ədədlə)




## 2019-2023-cü illərdə istehsal sayına görə TOP 10 avtomobil istehsalçısı




## 2023-cü ilin 10 lider avtomobil istehsalçı ölkəsi (milyon ədədlə)




## 2019-2023-cü illərdə avtomobil istehsalı üzrə konsentrasiya (milyon ədədlə)




- 2020-ci ildə qlobal pandemiya səbəbindən beynəlxalq avtomobil istehsalı 2019-cu illə müqayisədə təxminən 15% azalmışdır.
- Çin son illərdə digər ölkələr üzərində əhəmiyyətli üstünlük əldə etmişdir.

Mənbə: Beynəlxalq Avtomobil İstehsalçıları Təşkilatı (BAİT)

# Ən iri avtomobil ixracatçılarının əksəriyyəti eyni zamanda ən iri avtomobil idxalçılarıdır

## 2022-ci ildə ən iri 10 avtomobil ixracatçısı (milyard ABŞ dolları ilə):

| # | Ölkə | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|
| 1 | Almaniya | 143.9 | 122.8 | 140.3 | 157.3 |
| 2 | Yaponiya | 98.0 | 81.0 | 85.5 | 86.6 |
| 3 | ABŞ | 56.2 | 45.6 | 54.7 | 57.9 |
| 4 | Cənubi Koreya | 40.5 | 35.6 | 44.3 | 51.7 |
| 5 | Meksika | 50.6 | 40.2 | 39.9 | 46.9 |
| 6 | Çin | 8.6 | 9.9 | 24.4 | 44.7 |
| 7 | İspaniya | 34.4 | 31.5 | 33.9 | 32.9 |
| 8 | Kanada | 40.7 | 32.0 | 29.1 | 29.4 |
| 9 | Birləşmiş Krallıq | 38.6 | 26.6 | 30.2 | 29.4 |
| 10 | Slovakiya | 23.2 | 24.3 | 26.6 | 26.2 |

## 2022-ci ildə ən iri 10 avtomobil idxalçısı (milyard ABŞ dolları ilə):

| # | Ölkə | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|
| 1 | ABŞ | 179.5 | 145.7 | 148.1 | 168.3 |
| 2 | Almaniya | 72.5 | 66.0 | 67.7 | 69.4 |
| 3 | Çin | 47.1 | 44.9 | 52.9 | 52.3 |
| 4 | Birləşmiş Krallıq | 43.8 | 34.7 | 34.1 | 44.2 |
| 5 | Fransa | 38.5 | 36.5 | 40.4 | 37.4 |
| 6 | Kanada | 28.5 | 22.0 | 28.6 | 32.6 |
| 7 | İtaliya | 30.9 | 23.0 | 25.9 | 25.6 |
| 8 | Belçika | 26.8 | 22.3 | 24.0 | 25.0 |
| 9 | Avstraliya | 15.3 | 13.2 | 18.1 | 19.8 |
| 10 | İspaniya | 20.9 | 13.8 | 15.3 | 17.4 |

## Regiondakı digər ölkələr tərəfindən idxal olunan avtomobillərin dəyəri (milyard ABŞ dolları ilə):




Mənbə: Birləşmiş Millətlər Təşkilatı - İqtisadi və Sosial Məsələlər Departamenti

# Azərbaycan avtomobil bazarı

# 2023-cü ildə nəqliyyat vasitələrinin sayı əvvəlki illə müqayisədə 6% artıb.

## Nəqliyyat vasitələrinin növünə görə ilkin qeydiyyat (min ədədlə)




## Nəqliyyat vasitələrinin növünə görə sayı (min ədədlə)




## Yaşına görə minik avtomobilləri (min ədədlə)




## Yanacaq növünə görə minik avtomobilləri (min ədədlə)







- 2013-2018-ci illər arasında istehsal olunan sərnişin avtomobillərinin sayı azalır, digər iki yaş qrupuna məxsus avtomobillər isə artır.
- Benzinlə işləyən avtomobillər hələ də ən çox tələb olunan növdür. Hibrid avtomobillərə də tələb artımını qeyd etmək lazımdır.

*Orta illik artım

Mənbə: Dövlət Statistika Komitəsi

# Son beş ildə Lada (VAZ), Mercedes-Benz, Hyundai və Toyota qeydiyyatda olan brendlər arasında ilk dördlükdə yer alıb

ABB

## İcmal statistika

| | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|
| 1000 nəfərə düşən avtomobil | 148 | 156 | 162 | 171 |
| Magistral yollar üzrə 1 kilometrə düşən avtomobillərin sayı | 77 | 81 | 87 | 91 |
| 1000 nəfərə düşən sərnişin avtomobili | 127 | 135 | 141 | 148 |
| 100 evə düşən şəxsi sərnişin avtomobillərinin sayı | 56 | 59 | 58 | 62 |

## Ən populyar 10 avtomobil brendi

1. Lada
2. Mercedes Benz
3. Hyundai
4. Toyota
5. Opel
6. Gaz
7. KIA
8. Nissan
9. BMW
10. Chevrolet




## 2023-cü ildə regionlar üzrə qeydiyyatda olan avtomobil sayı (ədədlə)




| İqtisadi rayon | 2023 |
|---|---|
| Bakı | 646,482 |
| Qarabağ | 102,291 |
| Lənkəran-Astara | 85,874 |
| Gəncə-Daşkəsən | 84,835 |
| Qazax-Tovuz | 84,635 |
| Abşeron-Xızı | 81,502 |
| Mərkəzi Aran | 73,083 |
| Şəki-Zaqatala | 70,711 |
| Quba-Xaçmaz | 58,570 |
| Mil-Muğan | 49,601 |
| Şirvan-Salyan | 48,575 |
| Şərqi Zəngəzur | 43,735 |
| Naxçıvan | 37,378 |
| Dağlıq Şirvan | 34,685 |

Mənbə: Dövlət Statistika Komitəsi

# Azərbaycana idxal olunan avtomobillərin qiyməti artmaqdadır

## İdxal olunan avtomobillərin ümumi miqdarı və dəyəri




İdxal olunan avtomobillərin miqdarında dalğalanmalar müşahidə olunsa da, dəyərlərində davamlı artım qeydə alınmışdır:

### Ötən ilə nəzərən fərq, %

| | 2021 | 2022 | 2023 |
|---|---|---|---|
| İdxal miqdarı | 71% | -19% | 28% |
| İdxal dəyəri | 44% | 8% | 79% |

İdxal miqdarı və dəyərinin orta illik artımları müvafiq olaraq 21% və 41% təşkil edir.

## İdxal olunan avtomobillərin orta qiyməti (ABŞ dolları ilə)




Bu tendensiya idxal olunan avtomobillərin qiymətinin artımı ilə izah edilə bilər. Ortalama qiymətin CAGR-ı 26%-dir.

Dövr ərzində qeydə alınmış ən aşağı orta qiymət $8,851 (R4 2021), ən yüksək orta qiymət isə $20,464 (R4 2023) olmuşdur.

Mənbə: Dövlət Gömrük Komitəsi

# Elektrik avtomobillərinin idxalı nəzərəçarpacaq səviyyədə artır

## Mühərrik tipinə görə avtomobillərin idxal trendi (ədədlə)




| Ötən ilə nəzərən fərq, % | 2021 | 2022 | 2023 | CAGR |
|---|---|---|---|---|
| Yalnız daxili yanma mühərriki | 62.2% | -21.1% | 24.8% | 16.9% |
| Hibrid | 154.6% | -12.4% | 24.4% | 40.5% |
| Yalnız elektrik | -4.2% | 203.8% | 538.3% | 164.8% |

## Mühərrik tipinə görə avtomobillərin idxal trendi (milyon ABŞ dolları ilə)




| Ötən ilə nəzərən fərq, % | 2021 | 2022 | 2023 | CAGR |
|---|---|---|---|---|
| Yalnız daxili yanma mühərriki | 38.4% | -4.1% | 49.4% | 25.6% |
| Hibrid | 173.2% | 102.8% | 148.6% | 139.7% |
| Yalnız elektrik | -58.4% | 410.0% | 609.3% | 146.8% |

- Elektrik avtomobilləri xüsusilə nəzərə çarpır: Əvvəlki ilə nəzərən 2023-cü ildə onların idxal miqdarı 5 dəfə, idxal dəyəri isə 6 dəfə artıb.
- Hibrid avtomobillərin idxal payı da artmaqda davam edir.
- Elektrik və hibrid avtomobillərin artan populyarlığı onların (a) az yanacaq sərfiyyatı və (b) yüksək texnoloji inkişafı ilə izah oluna bilər. Bundan əlavə, hibrid və elektrik avtomobillərin idxal olunmasına dövlət tərəfindən müxtəlif güzəştlərin tətbiq olunması onlara olan tələbata müsbət təsir göstərir.

Mənbə: Dövlət Gömrük Komitəsi

# İdxal olunan hibrid və elektrik avtomobillərinin orta qiyməti daha yüksəkdir

ABB
Azərbaycan Beynəlxalq Bankı

## Avtomobil idxalı və mühərrik növünə görə təsnifatı (ədədlə)




## Avtomobil idxalı və mühərrik növünə görə təsnifatı (milyon ABŞ dolları ilə)




**Bu dövr ərzində həm hibrid avtomobillərin (daxili yanma və elektrik mühərrikli olanlar), həm də elektrik avtomobillərinin bazar payı artmış, daxili yanma mühərrikli avtomobillərin payı isə azalmışdır.**

## Mühərrik növünə görə idxal olunan avtomobillərin orta qiyməti (ABŞ dolları ilə)




**Elektrik avtomobilləri davamlı olaraq digər nəqliyyat vasitələrindən daha baha olmuşdur.**

**2022-ci ilədək Azərbaycana yalnız aşağı büdcəli hibrid avtomobillər idxal olunurdusa, həmin ildən sonra populyarlığın artması ilə daha bahalı hibrid modellərin də idxalına başlanmışdır.**

Mənbə: Dövlət Gömrük Komitəsi

# Avtomobillər, əsasən, 7 ölkədən idxal olunur

## Ölkələr üzrə idxal olunan avtomobillərin miqdarı (ədədlə)




## Miqdara görə bazar paylarının zamanla dəyişməsi




## Ölkə üzrə idxal olunan avtomobillərin dəyəri (milyon ABŞ dolları ilə)




## Dəyərə görə bazar paylarının zamanla dəyişməsi




- 2023-cü ildə Çin və Koreya avtomobillərinin idxalı kəskin şəkildə artmışdır.
- Yuxarıda qeyd olunan ölkələr Azərbaycana əsas avtomobil ixracatçılarıdır və onların cəmi ixracı dövr ərzində olan ümumi avtomobil ixracının 80%-dən çoxunu təşkil edir.

Mənbə: Dövlət Gömrük Komitəsi

# Əsas ixracatçılar arasında Birləşmiş Krallıq avtomobillərinin qiyməti ən yüksəkdir

Ölkələr üzrə idxal olunan avtomobillərin orta qiyməti (ABŞ dolları ilə)




- Birləşmiş Krallıqdan əsasən lüks avtomobillər idxal olunur.
- Əvvəlki səhifədən də göründüyü kimi, bütün dövr ərzində Çinin idxal dəyərindəki payı idxal miqdarındakı payından daha böyükdür. Bu hal Çindən daha bahalı avtomobillərin idxal edildiyini göstərir ki, bu da yuxarıdakı qrafiklə bir daha təsdiqlənir.

Mənbə: Dövlət Gömrük Komitəsi

# Azərbaycanda ikinci əl avtomobil bazarı

## Ən çox təmsil olunan ölkələr

| # | Ölkə | Brend sayı | Ortalama qiymət (AZN) | Ortalama yaş (il) |
|---|---|---|---|---|
| 1 | Almaniya | 10 | 31,538 | 17.9 |
| 2 | Cənubi Koreya | 7 | 25,001 | 10.9 |
| 3 | Yaponiya | 12 | 32,592 | 11.8 |
| 4 | Rusiya | 5 | 6,436 | 22.8 |
| 5 | ABŞ | 13 | 24,473 | 11.5 |
| 6 | Birləşmiş Krallıq | 8 | 103,537 | 8.7 |
| 7 | Çin | 49 | 49,096 | 2.9 |

## Avtomobillərin ban və yanacaq tipinə görə təsnifatı




## Ən populyar 10 avtomobil markası




## Ən populyar 10 model və onların orta qiymətləri




- Çin avtomobilləri bazarda ən yeniləridir.
- Köhnə olmasına baxmayaraq, Rusiyanın "VAZ" markası Azərbaycanda hələ də populyardır.

Mənbə: turbo.az

# Azərbaycanda ikinci əl avtomobil bazarı

## Avtomobillərin yaşa görə təsnifatı




## Avtomobillərin mühərrik həcminə görə təsnifatı (litrlə)




## İkinci əl avtomobil bazarında ən fəal bölgələr




## Avtomobillərin yürüşünə görə təsnifatı (min km. ilə)




## Avtomobillərin at gücünə görə təsnifatı




- İkinci əl bazarında avtomobillərin 61%-nin yaşı 10 ildən çoxdur.
- Bakı ikinci əl avtomobil bazarında əsas mərkəz rolunu oynayır.

Mənbə: turbo.az

# Məsuliyyət

Bu sənədin mülkiyyət hüquqları "ABB" ASC-yə aiddir və ümumi məlumat məqsədi ilə daxili araşdırma çərçivəsində hazırlanmışdır. Buradakı məlumatlar investisiya məsləhəti, hüquqi məsləhətlər və ya digər növ peşəkar məsləhət kimi qiymətləndirilməməlidir. Bu sənəd heç bir müqavilənin və ya əməliyyatın əsası olmayacaq və ya təqdim olunan məlumatla əlaqəli heç bir addımın tövsiyə edilməsi kimi dəyərləndirilməyəcək.

Bu sənəd heç bir bildiriş olmadan yoxlama, tamamlama və dəyişikliklərə məruz qala bilər və ABB bu sənəddə əhatə olunan heç bir məlumatın yenilənməsinə görə məsuliyyət daşımır. Burada təqdim olunan fikirlər, proqnozlar və qiymətlər, üçüncü tərəf mənbələrdən əldə edilmiş məlumata əsaslanır və dəyişikliklərə məruz qalaraq bildirişsiz dəyişə bilər. Üçüncü tərəf nəşrləri, tədqiqatlar və müstəqil araşdırmalar, məlumatlarının güvənli mənbələrdən əldə edildiyini bildirir, lakin dəqiqlilik və ya tamamlıq təmin edilmir. Beləliklə, bu sənəddə yerləşdirilmiş məlumatlara heç bir qərarverici əhəmiyyət verilməməlidir.

Bu sənədə yerləşdirilmiş məlumatların dəqiqliyinə əmin olmaq üçün bütün səylər göstərilsə də, ABB, direktorları, əməkdaşları, filialları, müşavirləri və agentləri təqdimat haqqında heç bir doğruluq zəmanəti vermir. Bu məlumatlara əminlik və istifadəyə dair cavabdehlik bilavasitə sənədin istifadəçisinə və ya oxucuya aiddir. Biz bu sənədin istifadəsi ilə əlaqədar, məlumat itkisinə və ya zərərinə, yaxud gəlirlərin itirilməsinə görə heç bir məsuliyyət qəbul etmirik.

Bu sənəd gələcəyə dair proqnozlara əsaslanan ifadələr təşkil edə bilər. Belə ifadələr bəzi təxminlərə və gözləntilərə əsaslansa da, faktiki nəticələr, performans və nailiyyətlər ifadə olunanlardan fərqlilik təşkil edə bilər. Biz hər hansı bir baxışı ictimai olaraq yeniləməyə və dəyişməyə əmin olmağa dair heç bir öhdəlik qəbul etmirik. Üçüncü tərəf saytlarına verilən bağlantılar və istinadlar təkliflərin təsdiqini və ya içindəkilərin fikirlərinə düzgünlüyünü təmin etmir. Təmin olunan məlumatlara əsaslanaraq investisiya qərarları və ya tədbirlər görmədən əvvəl mütəxəssis məsləhətçi ilə məlumat ətrafında ciddi şəkildə nəzəri olmağı tövsiyə edirik. ABB, tədqiqatı ilə bağlılığı olan şirkətlərlə birgə əməkdaşlıq edə bilər. Nəticədə, bu sənəddəki məlumatların obyektivliyinə təsir edə biləcək potensial bir maraqlı tərəfin fərqində olmalısınız.

Hər hansı bir məqsədlə bu sənədin bütün və ya hər hansı bir hissəsinin qeyri-qanuni kopyalanması, çap olunması, dərc edilməsi və ya yenidən tərcümə olunması məhdudlaşdırılmışdır.

**Əlaqədar şəxs:**

**Səbuhi Həmidli**
Risklərin idarə edilməsi departamenti,
Bazar risklərinin idarə edilməsi şöbəsi

**Kamran Hüseynov**
Risklərin idarə edilməsi departamenti,
Bazar risklərinin idarə edilməsi şöbəsi

Nizami küç. 67,
AZ1005 Bakı, Azərbayan

+99412 493 00 91 (dax.: 1416)
abb-research@abb-bank.az

+99412 493 00 91 (dax.: 1440)
abb-research@abb-bank.az

Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

# Diqqətinizə görə təşəkkürlər

Sentyabr 2024